

POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

13 noyabr 2026-cı il
Cümə

1933-cü ildən çıxır
№ 43 (3806)

Qardaşlığın qlobal miqyası



Azərbaycan və Türkiyənin əməkdaşlığı beynəlxalq miqyasda genişlənir

Azərbaycan və Türkiyə münasibətləri tarixin müxtəlif mərhələlərindən keçərək bugünkü yüksək strateji müttəfiqlik səviyyəsinə çatıb.


Son dövrlər müəyyən bədxah dairələrin məqsədli kampaniyalar apararaq Azərbaycan və Türkiyə münasibətlərinə xələl gətirmək cəhdləri müşahidə olunsa da, iki dövlətin siyasi rəhbərliyinin qətiyyətli mövqeyi, qarşılıqlı səfərlər və beynəlxalq platformalarda nümayiş etdirilən həmrəylik belə cəhdləri nəticəsiz qoydu. Bu baxımdan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 8 Noyabr Zəfər Günündə Azərbaycana səfəri, bundan iki gün sonra Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının (COP31) Liderlər Sammitində iştirak etmək üçün Türkiyəyə səfər etməsi xüsusi ilə diqqət çəkir. Bu hadisələr iki qardaş ölkənin strateji müttəfiqliyə sadiqliyini, beynəlxalq məsələlərdə ortaq mövqeyini və münasibətlərin gələcək inkişafına dair vahid siyasi iradəsini bir daha nümayiş etdirdi.

Antalyada keçirilən COP31 çərçivəsində Liderlər Sammiti Azərbaycan və Türkiyə əməkdaşlığının beynəlxalq miqyasda genişlənməsi baxımından da önəmlidir. Azərbaycanın 2024-cü ildə COP29-a evsahibliyi etməsi və Türkiyənin COP31-ə sədrliyi iki ölkənin qlobal iqlim siyasətində fəal iştirakının göstəricisidir. İqlim diplomatiyası, yaşıl enerji, ekoloji dayanıqlılıq sahələrində əldə olunan təcrübə yeni birgə təşəbbüslərin həyata keçirilməsi üçün əlverişli imkanlar yaradır.

Bu mənada Şuşa və Antalya səfərləri arasında mühüm siyasi bağlılıq var. Şuşada Azərbaycan və Türkiyənin tarixi qardaşlığı, strateji müttəfiqliyi və regional təhlükəsizlik məsələləri ön plana çıxırsa, Antalya səfəri həmin birliyin qlobal gündəlikdə də ardıcıl şəkildə davam etdiyini göstərir.

Şuşadan Antalyaya uzanan diplomatik təmaslar növbəti dəfə sübut etdi ki, Azərbaycan və Türkiyə münasibətlərinin gələcəyini kənar dairələrin cəhdləri deyil, iki dövlətin ortaq siyasi iradəsi və strateji maraqları müəyyən edir.

Daxili işlər orqanlarının şəxsi heyətinə



Əziz həmkarlar!

Tarixi Zəfər Günü, həmçinin Dövlət Bayrağı Günü münasibətilə Sizi, hörmətli veteranlarımızı, şəhid hərbi qulluqçularımızın və polis əməkdaşlarımızın ailə üzvlərini təbrik edir, ən xoş diləklərimi çatdırıram!

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə Vətən müharibəsində rəşadətli Ordumuzla birgə mərdliklə döyüşərək yüksək döyüş ruhu, şücaət və fədakarlıq göstərib torpaqlarımızı işğaldan azad etmiş, antiterror əməliyyatı nəticəsində isə bu möhtəşəm Qələbəni daha da möhkəmləndirməklə dövlətimizin suverenliyini onun bütün ərazilərində bərpa etmişlər.

Əminəm ki, Vətənə və xalqa sədaqəti ilə seçilən, qanunçuluğun və hüquq qaydasının keşiyində daim əzmlə dayanan şəxsi heyət bundan sonra da xidməti vəzifələri böyük məsuliyyət və peşəkarlıqla yerinə yetirəcək, eyni zamanda işğaldan azad edilmiş ərazilərdə ictimai asayişin və təhlükəsizliyin etibarlı təminatına töhfələr verərək möhtərəm Prezidentin ali etimadını doğruldacaqdır.

Bu əlamətdar bayram günlərində hər birinizə Azərbaycan Respublikasına xidmətə görə təşəkkür edir, möhkəm can sağlığı, ailə səadəti və uğurlar arzulayıram!

Vilayət Eyvazov
Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik

“Birliyimiz əbədidir, sarsılmazdır”

Dünyaya vacib mesajlar verildi

Noyabrın 8-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana rəsmi səfər edib. Füzuli Beynəlxalq Hava Limanında Türkiyə Prezidentini və xanımı Əminə Ərdoğanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qarşılayıblar.

Şuşada dövlət başçılarının təkbətək görüşü keçirilib, ardınca prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev Türkiyənin Vətən müharibəsi dövründə Azərbaycana göstərdiyi dəstəyi yüksək qiymətləndirərək iki ölkənin birliyinin əbədi və sarsılmaz olduğunu vurğulayıb: “Bunu sarsıtmaq istəyənlər isə öz arzularına heç vaxt çatmayacaqlar”.

Prezident Rəcəb Tayyib Ərdoğan isə Türkiyənin Azərbaycanın yanında olmağa və Qarabağın bərpasına töhfə verməyə davam edəcəyini bildirib.

Dövlət başçıları daha sonra Xankəndidə Zəfər abidəsini, Xocalıda Xocalı Soyqırımı Memorialını ziyarət ediblər. Həmçinin Xankəndidə Vətən müharibəsi qəhrəmanları və yüksək ordenlərlə təltif olunmuş hərbi qulluqçularla görüşüblər.

Konstitusiya Günü

Prezident və Birinci vitse-prezident bayram münasibətilə paylaşım ediblər

Noyabrın 12-də Azərbaycanda Konstitusiya Günü qeyd olunub. Ölkəmizin Əsas Qanununun qəbul edilməsindən 31 il ötüb. Bu münasibətlə Prezident İlham Əliyev sosial şəbəkə hesablarında paylaşım edilib. Birinci vitse-prezident Mehriban Əliyeva da Konstitusiya Günü münasibətilə sosial şəbəkə hesablarında foto paylaşıb.

Qarabağda yeni açılışlar

Prezident bölgəyə səfər edib

Noyabrın 6-da və 7-də Prezident İlham Əliyev Qarabağa və Şərqi Zəngəzura səfər edib. Dövlət başçısı və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunda “Sunbeverage” MMC-nin alkoqolsuz içki istehsalı müəssisəsinin, Soltanlı kəndinin birinci mərhələsinin, Zəngilan Şəhər Təhsil Kompleksinin və Cahangirbəyli kəndinin birinci mərhələsinin açılışlarında iştirak ediblər.

Prezident İlham Əliyev, həmçinin Şuşa Dövlət Peşə Təhsil Mərkəzinin, Qarabağ Universiteti Klinikasının Təcili tibbi yardım şöbəsinin, Xankəndi Stadionunun, Ağdam Sənaye Parkında iki istehsal müəssisəsinin açılışında iştirak edib. Dövlət başçısı Qarabağ Universitetinin Kitabxanasının və İnnovasiya Mərkəzinin təməlini qoyub, Ağdam Rayon Mərkəzi Xəstəxanasının tikintisi ilə və Ağdam Zeytun müəssisəsində yaradılan şəraitlə tanış olub.

Gəncədə vətəndaş qəbulu
2


Zəfər tariximizə elmi baxış
2


Kursantlar biliklərini sınayıblar
3


Vətənə yenə medalla döndü
4


Respublika xəbərləri

Xankəndidə Zəfər Muzeyi yaradılacaq

Xankəndi şəhərində Zəfər Muzeyi yaradılacaq. Prezident İlham Əliyev Zəfər Günü münasibətilə Azərbaycan xalqına təbrikində bildirib ki, muzey keçmiş icra hakimiyyətinin binasında yerləşəcək. Hazırda muzeyin yaradılması ilə bağlı son tamamlama işləri aparılır.

Dörd ölkə arasında saziş imzalanıb

Türkiyənin Antalya şəhərində Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 31-ci Tərəflər Konfransı çərçivəsində Azərbaycan, Bolqarıstan, Gürcüstan və Türkiyə arasında təmiz enerji sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalanıb. Saziş Azərbaycanın təmiz elektrik enerjisinin Türkiyə və Avropa bazarlarına ötürülməsinə imkan verəcək.

ÜDM-də artım

2026-cı ilin yanvar-oktyabr aylarında Azərbaycanda 115 milyard 930,5 milyon manatlıq ümumi daxili məhsul istehsal olunub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 1,7 faiz çoxdur. Neft-qaz ÜDM-i 0,9 faiz azalıb, qeyri-neft-qaz ÜDM-i isə 2,9 faiz artaraq 80 milyard 701,4 milyon manata çatıb.

Ağdamda metal məmulatları zavodu açılıb

Ağdam şəhərində Sənaye Parkında "ASMC" Məhdud Məsuliyyətli Cəmiyyətinin metal məmulatları istehsalı müəssisəsi istifadəyə verilib. Ümumi dəyəri 24,9 milyon manat olan layihə iki mərhələdə həyata keçirilir. Müəssisədə polad həsir, məftil və mismar istehsal olunacaq. Hazırda zavodda 26 nəfər çalışır, tam gücü ilə fəaliyyətə başladıqdan sonra daimi iş yerlərinin sayının 100-ə çatdırılması nəzərdə tutulur.

Bu məhsullar ƏDV-dən azad ediləcək

Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının satışı üzrə dövriyyənin əlavə dəyər vergisindən (ƏDV) azad edilməsi müddətinin 2029-cu ilin sonuna qədər uzadılması nəzərdə tutulur. Həmçinin buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı da daha 3 il müddətinə ƏDV-dən azad olunacaq.

Əcnəbilərin qeydiyyatına rüsum tətbiq olunur

Azərbaycanda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması üçün dövlət rüsumu tətbiq ediləcək. Həmçinin iş icazəsinin yenidən rəsmiləşdirilməsi, eləcə də eyni işəgötürənin yanında başqa işə keçirilməsi ilə bağlı yeni iş icazəsinin verilməsi üçün dövlət rüsumu ödəniləcək.

İşsizlikdən sığorta haqqı nağdsız ödəniləcək

Azərbaycanda işsizlikdən sığorta haqqının yalnız nağdsız formada ödənilməsi nəzərdə tutulur. Hər ay üçün hesablanmış sığorta haqqı əməkhaqqı ödənişləri ilə eyni vaxtda, lakin növbəti ayın 15-dən gec olmayaraq sığortaçıya tam məbləğdə ödəniləcək.

Əməkhaqqı xərcləri artacaq

2027-ci ildə Azərbaycanda dövlət büdcəsindən əməyin ödənişi xərclərinə 11 milyard 891,3 milyon manat ayrılması nəzərdə tutulur. Bu, 2026-cı illə müqayisədə 16 faiz çoxdur. Gələn il qrantlar və digər ödənişlərə 3 milyard 409,1 milyon manat, sosial ödənişlərə 3 milyard 462 milyon manat, dövlət icbari şəxsi sığorta xərclərinə 59,1 milyon manat vəsait ayrılması planlaşdırılır.

Böyük sosial paket həyata keçiriləcək

"2027-ci ildə Azərbaycanda böyük sosial paket həyata keçiriləcək". Bu fikirləri maliyyə naziri Sahil Babayev Milli Məclisin komitələrin birgə iclasında deyib. Nazir qeyd edib ki, növbəti ildə sosial parketin reallaşdırılması üçün maliyyə təminatı da büdcədə ehtiyat vəsait kimi müəyyənləşdirilib. Hökumət tərəfindən hazırlanan layihələr yekun versiyada ölkə başçısına təqdim edildikdən, müvafiq sərəncam və fərmanlar imzaladıqdan sonra həmin vəsaitlərin müvafiq maddələr bölgüsü aparılacaq.

Sosial ödənişlər proaktiv qaydada təyin olunur

Bu ilin yanvar-oktyabr aylarında Azərbaycanda 123 131 nəfərə proaktiv qaydada sosial müavinət və təqaüd təyin olunub. Onların 53,7 faizini kişilər, 46,3 faizini isə qadınlar təşkil edib.

Gəncədə vətəndaş qəbulu

Nazir daxili işlər orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri Vilayət Eyvazov noyabrın 11-də və 12-də Gəncə Şəhər Baş Polis İdarəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Gəncə şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Sonra Baş Polis İdarəsinin inzibati binasında Gəncə, Naftalan, Samux, Göygöl, Goranboy, Daşkəsən, Kəlbəcər şəhər və rayonlarından, eləcə də



digər bölgələrdən qəbula gələn 379 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində nazir Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib. Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 461 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclərə etimad göstərilir

Sıra baxışında 179 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb





Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov noyabrın 5-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 179 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir V. Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

Zəfər tariximizə elmi baxış

DİN-in ali təhsil müəssisələrində konfranslar keçirilib





Daxili İşlər Nazirliyinin Polis Akademiyasında və Daxili Qoşunların Hərbi İnstitutunda 8 Noyabr – Zəfər Gününə, 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Qələbənin 6-cı ildönümünə həsr olunan konfranslar keçirilib.

Tədbirlərdə dövlət qurumlarının, hüquq-mühafizə orqanlarının, ali təhsil və elmi-tədqiqat müəssisələrinin nümayəndələri, Vətən müharibəsinin qəhrəmanları və iştirakçıları, eləcə də təhsilalanlar iştirak ediblər.

Konfranslarda Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni səsləndirilib, tarixi Zəfərə həsr olunmuş videoçarxlar nümayiş etdirilib.

Polis Akademiyasında təşkil olunan "8 Noyabr – Azərbaycan tarixinin zəfər zirvəsi" mövzusunda konfransı giriş sözü ilə açan akademiyanın rəisi polis general-mayoru Canpolad Daanov 44 günlük Vətən müharibəsində qazanılmış Qələbənin milli dövlətçiliyimizin və hərbi qüdrətimizin parlaq təzahürü olduğunu vurğulayıb.

Konfransda çıxış edənlər Zəfər Gününün xalqımızın qəhrəmanlıq salnaməsində müstəsna yer tutduğunu, bu tarixi Qələbənin milli qürurun, Vətənə sevginin və şəhidlərimizin xatirəsinə dərin ehtiramın ifadəsi olduğunu bildiriblər.

Tədbirin bədii hissəsində akademiyanın kursantlarının hazırladıqları "Azərbaycan tarixinin zəfər zirvəsi" adlı ədəbi-bədii kompozisiya təqdim olunub.

Daxili Qoşunların Hərbi İnstitutunda isə "Zəfər tarixi" mövzusunda respublika elmi-nəzəri konfransı keçirilib. Tədbirdən əvvəl iştirakçılar institutun ərazisində şəhidlərin xatirəsinə ucaldılmış abidəni ziyarət ediblər.

Konfransda çıxış edən Hərbi İnstitutun rektoru, general-mayor Elçin Məmmədov tarixi Qələbənin əhəmiyyətindən söz açaraq gənc nəslin dövlətçilik ideyalarına sədaqət və vətənpərvərlik ruhunda yetişdirilməsinin vacibliyini diqqətə çatdırıb.

Təqdim olunan məruzələrdə Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik strategiyasının və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinin tarixi Zəfərin qazanılmasındakı müstəsna rolu vurğulanıb.

Çıxışlarda Vətən müharibəsinin hərbi-siyasi nəticələri, müharibədən sonrakı dövrdə təhlükəsizlik sisteminin təkmilləşdirilməsi, milli birlik və həmrəyliyin möhkəmləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Hər iki konfransda 8 Noyabr Zəfərinin Azərbaycan xalqının sarsılmaz iradəsinin, dövlətimizin qüdrətinin və milli birliyimizin təntənəsi olduğu xüsusi qeyd edilib.

Uşaq hüquqları polisin diqqətindədir

Bu məqsədlə ardıcıl tədbirlər görülür

Uşaqların hüquqlarının müdafiəsinə dövlətin münasibəti ilk növbədə bu sahədə yaradılan hüquqi və təşkilati mexanizmlərdə özünü göstərir. Azərbaycanda uşaqların təhlükəsizliyinin təmin olunması, onların zorakılıqdan, istismardan və hüquqpozmalardan qorunması üçün müxtəlif dövlət qurumlarının üzərinə konkret vəzifələr qoyulub. Daxili işlər orqanlarında yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili üzrə ayrıca xidmət sahəsinin mövcudluğu da bu yanaşmanın ifadəsidir.

Məlum olduğu kimi, hər il oktyabrın 20-dən noyabrın 20-dək ölkəmizdə "Uşaq hüquqları aylığı" keçirilir. Aparılan maarifləndirmə işi, təşkil olunan görüşlər və müzakirələr uşaqların hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlər aylıq çərçivəsində ictimaiyyətə daha çox təqdim edilir.

Bütövlükdə götürdükdə isə uşaqların təhlükəsizliyinin təmin olunması polisin gündəlik xidmətinə aiddir. Yəni yetkinlik yaşına çatmayanlara qarşı törədilən cinayətlərin qarşısının alınması və açılması, zorakılıq və istismar hallarının araşdırılması, yaşayış ünvanını xəbərsiz tərk etmiş uşaqların axtarışı, onların hüquqlarını pozan əməllərə qarşı qanunla müəyyən edilmiş tədbirlərin görülməsi bu xidmətin əsasını təşkil edir. Üstəlik, polisin profilaktik tədbirləri bu sahədə xüsusi çəkiyə malikdir. Təhsil müəssisələrində keçirilən görüşlərdə şagirdlərə hüquq və vəzifələri, zorakılıqdan qorunma yolları, narkotik vasitələrin zərərləri, yol hərəkəti təhlükəsizliyi, internet və sosial şəbəkələrdə qarşılaşdıqları risklər barədə məlumat verilir. Yeniyetmələr arasında hüquqpozmaların qarşısının alınması məqsədilə müəllimlər və valideynlərlə əməkdaşlıq edilir, zərurət yarandıqda fərdi profilaktik tədbirlər görülür. Burada bütün ərazi polis qurumlarında yetkinlik yaşına çatmayanlarla profilaktik iş aparan inspektorların üzərinə son dərəcə məsuliyyətli iş düşür. Dünya ölkələri ilə müqayisədə Azərbaycanda yetkinlik yaşına çatmayanlar tərəfindən cinayət və hüquq pozuntusu törədilmə nisbəti xeyli aşağıdır ki, bu da aidiyyəti əməkdaşların işlərinin öhdəsindən əsasən gəldiyini göstərən faktdır. Uşaqlarla işləmə bacarığına malik peşəkar polis əməkdaşları yeri gələndə onların hüquqlarının qorunmasında əsl hüquq müdafiəçisi kimi çıxış edirlər. Qabaqlayıcı tədbirlər sayəsində uşaqlara qarşı yönələn hüquq pozuntularının qarşısı vaxtında alınır. Məsələn, erkən nikahla mübarizədə bu xidməti yada sala bilərik.

Bir məqam üzərində isə ayrıca dayanmağa dəyər. Uşaqların hüquqlarının qorunması ilə onların qanunlara hörmət ruhunda tərbiyə olunması arasında sıx əlaqə var. Öz hüquqlarını bilən uşaq başqalarının hüquqlarına hörmət etməyin vacibliyini də dərk edir. Deməli, məktəblərdə polisin iştirakı ilə keçirilən hüquqi maarifləndirmə tədbirləri bu anlayışın formalaşmasına kömək edir. Xüsusilə yeniyetməlik dövründə hüquq və məsuliyyət barədə düzgün təsəvvürün yaranması sonrakı davranışlara təsir göstərir.

Uşaqların müdafiəsi sahəsində görülən tədbirlərin səmərəliliyi ailə, məktəb və polis arasında əməkdaşlıqla sıx bağlı olduğuna görə bu məsələdə birgə hərəkət etmənin zəruriliyini bir daha qeyd etməliyik. Polisin bu cür məqsədyönlü tədbirlərinin cəmiyyətin hər bir kəsimi tərəfindən dəstəklənməsi isə mütləqdir. "Uşaq hüquqları aylığı" bu sahəyə ictimai diqqətin artırılması və uşaqların hüquqlarının qorunmasının əhəmiyyətinin bir daha vurğulanması baxımından əlverişli imkan yaradır.

Kursantlar biliklərini sınayıblar

Polis Akademiyasında intellektual yarış keçirilib

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında 8 Noyabr - Zəfər Günü, 9 Noyabr - Dövlət Bayrağı Günü və 12 Noyabr - Konstitusiya Gününə həsr olunmuş intellektual bilik yarışı keçirilib.

Akademiyanın Dövlət və hüquq nəzəriyyəsi kafedrasının nəzdində fəaliyyət göstərən "Gənc hüquqşünas" kursant elmi dərnəyi və Kursant Elmi Cəmiyyətinin birgə təşkilatçılığı ilə keçirilən yarışda Hüquq fakültəsinin II və III kurslarında təhsil alan kursantlardan ibarət 6 komanda iştirak edib.



Tədbir Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbəyə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Daha sonra komandalar arasında bilik yarışına start verilib. Üç mərhələdən ibarət yarışda kursantlar müxtəlif mövzular üzrə sualları cavablandıraraq bilik və məntiqi düşünmə bacarıqlarını nümayiş etdiriblər. Yarışın nəticələrinə əsasən qalib komandanın üzvlərinə sertifikatlar təqdim olunub.

Yüksək sürət məsafəni deyil, ömrü qısaldır

Bir neçə dəqiqə qazanmaq istəyi faciə ilə nəticələnə bilər



Bəzən sürücülər mənzil başına daha tez çatmaq üçün sürət həddini aşmağı adi hal hesab edirlər. Onlara elə gəlir ki, avtomobilin sürətini bir qədər artırmaqla yolda xeyli vaxta qənaət etmək mümkündür. Halbuki bu zaman qazanılan dəqiqələrlə yaranan təhlükə arasında ciddi fərq var. Bir neçə dəqiqə tez çatmaq istəyi həm sürücünün, həm də digər hərəkət iştirakçılarının həyatını riskə ata bilər. Təsəvvür edək ki, eyni məsafəni qət edən iki avtomobildən biri saatda 90 kilometr, digəri isə 130 kilometr sürətlə hərəkət edir. İlk baxışdan ikinci avtomobilin daha böyük üstünlük əldə edəcəyi düşünülə bilər. Lakin məsafə uzandıqca belə fərqin gözlənildiyi qədər böyük olmadığı aydın olur. Üstəlik, bu hesablamalar yolun boş olduğu və avtomobillərin bütün məsafə boyunca eyni sürətlə hərəkət etdiyi ideal şəraitə əsaslanır. Yollarda isə svetoforlar, döngələr, nəqliyyat sıxlığı və digər amillər vaxt fərqini daha da azalda bilər.

Sürətin artırılması yalnız avtomobilin daha tez hərəkət etməsi demək deyil. Bu, eyni zamanda sürücünün qarşısına çıxan maneəyə reaksiya verməsi və avtomobili vaxtında dayandırması üçün daha az imkanın qalması deməkdir. Avtomobil yüksək sürətlə hərəkət etdikdə sürücü təhlükəni gördükdən sonra əyləci basana qədər də xeyli məsafə qət edir. Çünki insanın reaksiya müddəti ərzində nəqliyyat vasitəsi hərəkətini davam etdirir. Sürət artdıqca həmin müddətdə qət edilən məsafə də artır. Bunun ardınca isə əyləc sisteminin avtomobili tam dayandırması üçün əlavə məsafə tələb olunur. Məsələn, saatda 90 kilometr sürətlə hərəkət edən avtomobillə 130 kilometr sürətlə gedən avtomobil eyni anda əyləcdən istifadə etsələr onların durma məsafələri fərqli olacaq. Yüksək sürətlə hərəkət edən avtomobilin həm reaksiya, həm də əyləcləmə məsafəsi daha uzun olur. Nəticədə qarşısına qəfil maneə çıxan sürücünün qəzadan yayınma imkanları xeyli məhdudlaşır. Burada nəzərə alınmalı digər mühüm məqam isə toqquşma zamanı yaranan zərbənin gücüdür. Sürət artdıqca qəza zamanı avtomobilin daşıdığı kinetik enerji də kəskin artır. Bu isə toqquşmanın daha ağır nəticələnməsi, sürücü və sərnişinlərin ciddi xəsarət alması, hətta həyatlarını itirməsi riskini yüksəldir.

Qeyd edək ki, yol hərəkətində təhlükəsizlik sürücünün yalnız nəqliyyat vasitəsini idarə etmək bacarığından deyil, düzgün qərar verməsindən də asılıdır. Sürət həddinə əməl etmək, qarşıdakı məsafəni düzgün qiymətləndirmək, hava və yol şəraitini nəzərə almaq, qəfil maneələrə hazır olmaq hər bir sürücünün əsas vəzifələrindəndir. Mənzil başına bir neçə dəqiqə tez çatmaq heç vaxt insan həyatından daha vacib ola bilməz. Sükan arxasında tələsməmək, sürəti düzgün seçmək və qaydalara əməl etmək hər bir səfərin təhlükəsiz başa çatmasının əsas şərtidir.

Svetofor işləmirsə…

Bu nömrəyə zəng edin



Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi vətəndaşlara müraciət edib. Bildirilib ki, Bakı şəhərində yerləşən svetoforlar Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi tərəfindən idarə olunur. Paytaxt üzrə yol hərəkətinin vəziyyəti müşahidə kameraları vasitəsilə daim nəzarətdə saxlanılır. Svetoforların iş rejimində yaranan problemlər qeydə alınır, yol polisinə məlumat verilir və nasazlığın aradan qaldırılması məqsədilə texniki əməkdaşlar əraziyə yönləndirilir.

Lakin müşahidə kameralarının olmadığı və paytaxtın nisbətən kənar yollarında yerləşən svetoforlarda nasazlıq yarandıqda onu dərhal aşkar etmək mümkün olmur.

Yol hərəkəti iştirakçılarının təhlükəsiz hərəkətinin və operativliyin təmin edilməsi məqsədilə vətəndaşlardan xahiş edilir ki, paytaxt ərazisində yerləşən svetoforlarda hər hansı nasazlıqla rastlaşdıqda Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin 24 saat rejimində fəaliyyət göstərən +994 (012) 590 86 02 telefon nömrəsinə məlumat versinlər.

Velosipedçilərə çağırış

İşıqlandırma cihazı olmayan velosipedlə sutkanın qaranlıq vaxtı hərəkət etmək təhlükəlidir

Noyabrın 6-sı, saat 22:00 radələrində Ağdaş rayonu, Pirəyir kəndi ərazisində E. Məmmədzadənin idarə etdiyi "Opel" markalı avtomobil eyni istiqamətdə yolun hərəkət hissəsi ilə gedən velosipedçi V. Həbilovu vurub. İşıqlandırma cihazı olmayan velosipedlə sutkanın qaranlıq vaxtı hərəkət edən V. Həbilov zərbənin təsirindən yolun hərəkət hissəsinə düşüb və arxadan gələn "Mercedes" markalı avtomobil onun üzərindən keçib. Velosipedçi hadisə yerində ölüb.

Faktla bağlı araşdırma aparılır.

Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi ikitəkərli nəqliyyat vasitələrinin sürücülərini baş vermiş faciəli hadisədən düzgün nəticə çıxarmağa, sutkanın qaranlıq vaxtı və ya məhdud görünmə şəraitində hərəkət edərkən işıq cihazlarını işlək vəziyyətdə saxlamağa və işıqqaytarıcı elementlərin yerində olmasına nəzarət etməyə, yolun sağ kənar zolağı ilə getməyə, sürmə vərdişləri olmadığı halda yaşayış zonalarından kənara çıxmamağa çağırır.

Oğruların əməlləri ifşa olunub

Polis silsilə talama cinayətlərinin üstünü açıb

Abşeron rayonunda silsilə oğurluq hadisələri qeydə alınıb. Naməlum şəxs müxtəlif vaxtlarda rayon ərazisində yerləşən evin zirzəmisindən məişət əşyaları, tikiş sexi, yarımtikili və şirkətlərin birindən isə ümumilikdə 10 880 manat dəyərində elektrik avadanlıqları oğurlayıb. O, əməllərini ört-basdır etmək üçün talama cinayətlərini törədərkən müşahidə kameralarını da yararsız vəziyyətə salıb. Abşeron rayonunda polisin keçirdiyi tədbirlərlə oğurluq əməllərini törədən D. Həsənov müəyyən olunaraq saxlanılıb.

Həmçinin Sumqayıt şəhərində polisin keçirdiyi tədbirlərlə aptekləri birindən 35 min manat oğurlayan əvvəllər məhkum olunmuş H. Nurəliyev müəyyən olunaraq saxlanılıb. Araşdırma zamanı müəyyən edilib ki, saxlanılan şəxs müxtəlif vaxtlarda şəhər ərazisində yerləşən digər obyektlərə də daxil olaraq talama cinayətləri törədib.

Faktlarla bağlı cinayət işi başlanılıb. Məhkəmənin qərarına əsasən D. Həsənov barəsində həbs qətimkan tədbiri seçilib.

Araşdırmalar davam etdirilir.

Sürücülərə müraciət

Avtomobil idarə edərkən canlı yayım açmayın

Son dövrlər avtomobil idarə etdiyi zaman mobil telefondan istifadə edən, "TikTok" sosial şəbəkəsinə daxil olaraq canlı yayımlar açan sürücülərə rast gəlinir. Paytaxt yollarında baş verən yol-nəqliyyat hadisələrinin əsas səbəblərindən birinin sürücü diqqətsizliyi olduğunu nəzərə alsaq, sükan arxasında bu cür davranışların göstərilməsi təhlükəlidir. Hərəkət zamanı mütəmadi olaraq sürücünün diqqətinin yola yox, mobil telefona, sosial şəbəkələrə və canlı yayıma yönəlməsi qəza riskini artırır. Elə müşahidə kameralarının qeydə aldığı bir neçə yol-nəqliyyat hadisəsinin təhlili də onu deməyə əsas verir ki, bəzi qəzalar məhz sürücünün diqqətinin yayınması nəticəsində baş verib. Belə sürücülər bilməlidirlər ki, onların sosial şəbəkələrdə izləyici toplamaq, bəyənmə qazanmaq və ya populyarlıq əldə etmək istəyi digər hərəkət iştirakçılarının həyatına son qoya və ağır xəsarət almasına səbəb ola bilər. Qeyd edilənləri nəzərə alaraq, Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi hər bir sürücünü yollarda məsuliyyətli və diqqətli olmağa çağırır.

Vətənə yenə medalla döndü

Polis serjantı beynəlxalq turnirdə ikinci yer tutub



Azərbaycan karateçiləri Gürcüstanın Batumi şəhərində keçirilən "Batumi Open 2026 – Grand Prix" beynəlxalq turnirində yeddi medal qazanıblar.

"Fullkontakt şinkyokuşin karate" üslubu üzrə təşkil olunan yarışda yığmamız yarışı bir qızıl, iki gümüş və dörd bürünc medalla başa vurmaqla komanda hesabında üçüncü yeri tutub.

Medal qazananlardan biri də Bakı şəhər Baş Polis İdarəsinin əməkdaşı polis serjantı Solmaz Zeynallıdır. O, qadınların yarışında 60 kiloqram çəki dərəcəsində rinqə çıxıb və keçirdiyi üç döyüşün nəticələrinə əsasən gümüş medala sahib olub.

Qeyd edək ki, qələbələrini Vətən müharibəsində şəhid olan qardaşı, kapitan Tural Zeynalovun xatirəsinə həsr edən S. Zeynallı dəfələrlə beynəlxalq turnirlərdə uğurla çıxış edib, medallar qazanıb.

Ekosistemə qarşı cinayətlər

İnterpol təbiətə zərər vuranlara qarşı əməliyyat keçirib

İnterpol və Mərkəzi Amerika dövlətlərinin polis orqanları tərəfindən Karib hövzəsi ölkələrində ekoloji cinayətkarlığa qarşı birgə genişmiqyaslı əməliyyat keçirilib. Əməliyyatlar nəticəsində ətraf mühitə bərpaolunmaz ziyan vuran, ağacların qanunsuz kəsilməsi və icazəsiz mədən qazıntıları ilə məşğul olan mütəşəkkil cinayətkar şəbəkələr ifşa edilib. Doqquz ölkənin hüquq-mühafizə orqanlarının iştirak etdiyi əməliyyatlar zamanı 330-dan çox cinayət faktı aşkarlanıb və 233 şübhəli şəxs saxlanılıb. Axtarışlar zamanı qanunsuz qızıl qazıntılarında istifadə olunan 4,6 ton sianid, civə maddələri, eləcə də qanunsuz kəsilmiş külli miqdarda qiymətli ağac materialları müsadirə olunub. Qeyd edək ki, bu cür qanunsuz əməllər bölgənin iqlim sabitliyinə və biomüxtəlifliyinə böyük təhlükə yaradır.

İnterpol rəsmiləri vurğulayıblar ki, ekoloji cinayətkarlıqla mübarizədə əsas məqsəd yalnız ağacları qanunsuz kəsən və ya icazəsiz qazıntı aparan şəxsləri deyil, bu qanunsuz biznesi maliyyələşdirən və idarə edən beynəlxalq şəbəkələri ifşa etməkdir. Əməliyyat çərçivəsində əldə olunan rəqəmsal sübutlar və qanunsuz maliyyə axınları üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Milyonluq sənət əsərləri tapıldı


İtaliyada oğurlanan üç tablo beş ay sonra aşkarlanıb

İtaliyanın şimalında yerləşən "Magnani-Rocca" Fondunun muzeyindən oğurlanan, ümumi dəyəri 9 milyon avrodan çox olan üç məşhur rəssamın əsəri beş ay sonra polis tərəfindən tapılıb. Renuar, Sezann və Matissin tabloları Parma şəhərindəki yaşayış evlərindən birində, boş televizor qutusunun içərisində aşkarlanıb. Hadisə martın 22-dən 23-nə keçən gecə baş verib. Maskalı şəxslər muzeyə pəncərədən daxil olaraq rəsm əsərlərini cəmi üç dəqiqədən az müddətdə götürüb ərazidən uzaqlaşıblar. Oğurlanan əsərlər arasında Renuarın "Balıqlar", Sezannın "Gilaslarla natürmort" və Matissin "Terrasda odaliska" tabloları olub. Müşahidə kameralarının görüntüləri və hadisə yerində tapılan alətlər istintaq üçün mühüm əhəmiyyət daşıyıb. Alətlərin üzərindəki silinmiş seriya nömrələrinin bərpası da araşdırmaya kömək edib. Əməliyyat zamanı oğurluqda şübhəli bilinən beş Moldova vətəndaşı saxlanılıb. Daha doqquz nəfər barəsində də araşdırma aparılır. Muzeyin elmi direktoru Stefano Roffi tapılan əsərlərin orijinallığını təsdiqləyib. Hazırda istintaq davam edir, şübhəlilərin digər mümkün cinayətlərlə əlaqəsi araşdırılır.

Bir kliklə itirilən şəxsi məlumatlar

Saxta linklərə daxil olmaq hansı riskləri yaradır?

İnternetdə hər gün yüzlərlə keçidlə qarşılaşırıq. Bəzən maraqlı bir xəbər, bəzən endirimli məhsul, bəzən də elektron sənəd və ya fotoşəkili görmək üçün həmin keçidlərə daxil oluruq. Bu hərəkətlərin əksəriyyəti adi və təhlükəsiz görünsə də, onların arasında istifadəçinin məlumatlarını ələ keçirmək məqsədilə hazırlanmış saxta ünvanlar da var. Belə səhifələrə daxil olan şəxslər bəzən özləri də fərqinə varmadan kiberdələduzların qurduğu tələyə düşürlər.



Məlumat oğurluğunun təhlükəli tərəfi ondadır ki, cinayətkarın məqsədi hər zaman ilk addımdan pul əldə etmək olmur. Bəzən o, əvvəlcə istifadəçinin elektron poçtuna, sosial şəbəkə hesabına və ya mobil cihazına çıxış əldə etməyə çalışır. Sonrakı mərhələdə isə həmin imkanlardan istifadə etməklə digər hesablar və məlumatlar üzərində nəzarət qurulur. Beləliklə, bir hesabdan başlayan müdaxilə daha geniş rəqəmsal təhlükəsizlik probleminə çevrilə bilir. Bu cür hallarda ən çox istifadə olunan vasitələrdən biri saxta internet səhifələridir. Onlar zahiri görünüşünə görə tanınmış şirkətlərin, elektron xidmətlərin və bankların rəsmi platformalarını xatırladır. İstifadəçiyə hesabına daxil olmaq, sənədi təsdiqləmək, bağlamanı izləmək və ya müəyyən xidmətə qoşulmaq təklif olunur. Şəxs səhifənin həqiqiliyini yoxlamadan öz giriş məlumatlarını daxil etdikdə həmin məlumatlar qarşı tərəfin əlinə keçə bilər. Burada əsas məqsəd istifadəçini aldatmaqla onun öz əli ilə məxfi məlumatları təqdim etməsinə nail olmaqdır. Bu üsulun digər texniki hücumlardan fərqi də məhz insan faktorundan istifadə edilməsidir.

Bəzi hallarda isə təhlükə keçidin özündən deyil, onun vasitəsilə yüklənən fayldan qaynaqlanır. İstifadəçiyə fotoşəkil, sənəd, proqram və ya digər fayl kimi təqdim edilən materialın daxilində zərərli proqram təminatı yerləşdirilə bilər. Belə proqramlar cihazın fəaliyyətinə müdaxilə etmək, məlumatları toplamaq və ya kənardan idarəetmə imkanı yaratmaq məqsədi daşıya bilər. Bu səbəbdən unutmaq olmaz ki, mobil cihazlar da yalnız ünsiyyət vasitəsi deyil. Onlarda şəxsi yazışmalar, sənədlər, fotoşəkillər, elektron poçtlar, bank tətbiqləri və müxtəlif hesabların giriş məlumatları saxlanılır. Bu səbəbdən telefonun təhlükəsizliyinin pozulması bir neçə fərqli məlumat mənbəyinin eyni vaxtda riskə düşməsi deməkdir.

Xüsusilə istifadəçilərin fərqinə varmadan tətbiqlərə geniş icazələr verməsi əlavə təhlükələr yarada bilər. Məsələn, tətbiqin funksiyası ilə əlaqəsi olmadığı halda kontaktlara, fayllara, kameraya və mikrofona çıxış tələb etməsi diqqətlə qiymətləndirilməlidir. Hər bir icazənin səbəbini yoxlamadan təsdiqləmək şəxsi məlumatların lazımsız şəkildə toplanmasına şərait yarada bilər. Digər tərəfdən, bəzi zərərli proqramlar istifadəçinin daxil etdiyi məlumatları, ekranında görünən informasiyanı və cihazdakı müəyyən fəaliyyətləri izləmək imkanına malik olur. Belə hallarda insanın şəxsi hesabları üzərində nəzarəti itirməsi üçün onun birbaşa bank məlumatlarını təqdim etməsi də tələb olunmur.

Kiberdələduzluqda mühüm məqamlardan biri müxtəlif mənbələrdən əldə edilmiş məlumatların birləşdirilməsidir. Məsələn, sosial şəbəkədən götürülmüş telefon nömrəsi, açıq profildəki şəxsi məlumatlar və ələ keçirilmiş elektron poçt ünvanı birlikdə istifadə edilərək daha inandırıcı saxta müraciət hazırlana bilər. Bu zaman cinayətkar qarşı tərəfin ailə üzvləri, iş yeri, maraqları və gündəlik fəaliyyəti haqqında müəyyən təsəvvür əldə edir. Nəticədə göndərilən mesaj təsadüfi reklam və ya naməlum müraciət təsiri bağışlamır, konkret şəxsə ünvanlanmış etibarlı məlumat kimi görünür. Belə məlumatlardan istifadə etməklə şəxsin adından saxta hesablar yaradıla, onun yaxınlarına müraciət oluna, müxtəlif xidmətlərə qanunsuz giriş cəhdləri göstərilə bilər. Deməli, ayrı-ayrılıqda əhəmiyyətsiz görünən məlumatlar bir araya gətirildikdə cinayətkar üçün ciddi imkanlar yaradır.

İnternetdə həyata keçirilən əməliyyatlar müəyyən rəqəmsal izlər buraxır. Saytlara girişlər, hesab fəaliyyətləri, cihaz və bağlantı haqqında texniki məlumatlar təhlükəsizlik sistemləri tərəfindən qeydə alınır. Bu məlumatlar şübhəli fəaliyyətin müəyyənləşdirilməsi və insidentlərin araşdırılması baxımından əhəmiyyət daşıyır.

Kibercinayətlərin araşdırılmasında elektron sübutların təhlili, hesab fəaliyyətinin yoxlanılması, texniki məlumatların müqayisəsi və digər rəqəmsal izlərin müəyyən edilməsi mühüm yer tutur. Bu proseslər hadisənin necə baş verdiyini, hansı vasitələrdən istifadə olunduğunu və müdaxilənin hansı istiqamətdə həyata keçirildiyini aydınlaşdırmağa kömək edir.

Şəxsi məlumatların ələ keçirildiyindən şübhələnən istifadəçi də hadisənin "iz"lərini qorumağa çalışmalıdır. Şübhəli mesajları və keçidləri silmədən saxlamaq, hesabda naməlum girişləri yoxlamaq, bank əməliyyatlarını nəzərdən keçirmək, zərurət yarandıqda bank və polisə müraciət etmək vacibdir.

Rəqəmsal mühitdə təhlükəsizliyin təmin olunması üçün istifadəçilər tanımadıqları mənbələrdən göndərilən keçidlərə daxil olmamalı, yüklədikləri faylların mənşəyini yoxlamalı, tətbiqlərin tələb etdiyi icazələrə diqqət yetirməlidirlər. Hesablarda qeyri-adi fəaliyyət aşkarlandıqda isə giriş məlumatları dərhal dəyişdirilməli və əlavə təhlükəsizlik tədbirləri görülməlidir.

İnternetdə bir klik saniyələr çəkir, lakin onun nəticələrinin aradan qaldırılması xeyli vaxt və səy tələb edir. Bu səbəbdən hər bir keçidin arxasında hansı məqsədin dayandığını anlamaq, rəqəmsal mühitdə düşünülmüş qərar vermək və ehtiyatlı davranmaq kibercinayətkarlığa qarşı mübarizənin mühüm şərtlərindəndir.

Bununla yanaşı, elektron hesablar üçün güclü və fərqli şifrələrdən istifadə edilməsi, ikimərhələli təsdiqləmənin aktivləşdirilməsi təhlükəsizlik səviyyəsini artırır.

Heç bir halda təsdiq kodları və şifrələr naməlum şəxslərlə paylaşılmamalıdır. İstifadəçilər, həmçinin rəsmi internet ünvanlarını saxta keçidlərdən fərqləndirməyi bacarmalı, şübhəli bildirişlərə tələsmədən yanaşmalıdırlar.

Aytən Tahirova

Dünya bu polislərdən danışır

İki polis əməkdaşı silahlı şəxsi necə zərərsizləşdirib?



Polşada baş verən silahlı hücum zamanı iki polis əməkdaşı həyatlarını təhlükəyə ataraq silahlı şəxsin daha ağır cinayətlər törətməsinin qarşısını alıb. Noyabrın 7-də Krakov şəhərinin mərkəzində 24 yaşlı silahlı şəxs avtomobillə şəhər meydanına daxil olaraq insanlara atəş açıb. Yayılan məlumatlara görə, hücum nəticəsində 6 nəfər həlak olub, 15 nəfər yaralanıb. Hadisə barədə məlumat daxil olduqdan sonra polis qüvvələri dərhal əraziyə cəlb edilib.

Şəhər polisinin açıqlamasına görə, Krakovun 1 saylı Polis Bölməsinin əməkdaşları Y. Kulik və A. Moranski silahlı şəxsin avtomobilini aşkar edərək onu təqib etməyə başlayıblar. Onlar təqib zamanı ətrafdakı insanların təhlükəsizliyini nəzərə alaraq hərəkətdə olan avtomobilə atəş açmayıblar. Onun qarşısını kəsmək imkanı yarandıqda isə xidməti avtomobildən düşərək onunla silahlı qarşıdurmaya giriblər.

Şübhəlinin hərbi tipli odlu silahla təchiz olunmasına baxmayaraq, polis əməkdaşları geri çəkilməyiblər. Atışma zamanı polislər yaralansalar da, onlar silahlı şəxsi zərərsizləşdiriblər. Beləliklə, ətrafdakı insanlar üçün yaranmış təhlükə aradan qalxıb.

Polşa Polisinin Baş komendantının açıqlamasına görə, həmin gün hücum barədə ilk məlumat saat 15 radələrində daxil olub və cəmi üç dəqiqə sonra polis əməkdaşları silahlı şəxslə qarşıdurmaya giriblər. Bu qısa müddət ərzində onların vəziyyəti düzgün qiymətləndirməsi, mülki şəxslərin təhlükəsizliyini nəzərə alması və qətiyyətlə hərəkət etməsi daha böyük faciənin qarşısını alıb.

Hücumdan sonra polisin şübhəli şəxsin Ostrovets-Sventokşiski şəhərindəki mənzilində apardığı axtarış zaman onun valideynlərinin və bacısının güllələnmiş meyitləri də aşkar edilib. İstintaq onun Krakovda hücuma keçməzdən əvvəl öz ailəsini qətlə yetirdiyini müəyyənləşdirib. Şübhəlinin üzərindən, avtomobilindən və evindən ümumilikdə 11 ədəd odlu silah və yüzlərlə döyüş patronu tapılıb.

İlkin mərhələdə onun radikal sağçı ideologiyalardan təsirləndiyi bildirilsə də, prokurorluq konkret motivin hələ tam dəqiqləşdirilmədiyini açıqlayıb. İstintaqçılar ona məxsus 4 mobil telefonu araşdırır və cinayətdə ona kömək edən və ya təhrik edən başqa şəxslərin olub-olmadığını yoxlayırlar. Polşanın Kibercinayətkarlıqla Mübarizə Mərkəzi Bürosu isə sosial şəbəkələrdə şübhəli şəxsin əməllərini tərifləyən və dəstəkləyən 5 nəfəri saxlayıb.

Ölkə rəhbərliyi polis əməkdaşlarının qəhrəmanlığını yüksək qiymətləndirərək onların öz həyatlarını təhlükəyə atmaqla çoxsaylı insanı ölümdən xilas etdiklərini bildirib. Yaralanan polislərin ailələrinin dövlətin xüsusi qayğısı ilə əhatə olunacağı açıqlanıb.

Vətəndaşlar da polis əməkdaşlarına minnətdarlıqlarını maddi dəstək təşəbbüsü ilə ifadə ediblər. Yayılan məlumatlarda onların müalicəsinə və ailələrinə yardım məqsədilə təşkil olunan ianə kampaniyasına qısa müddətdə böyük məbləğdə vəsait toplandığı bildirilir.

Son məlumatlara görə, yaralanan hər iki polis əməkdaşının vəziyyəti stabil qiymətləndirilir. Bu fədakarlıq, sözsüz ki, ilk növbədə polis peşəsini seçənlər üçün örnəkdir. Krakovda baş verənlər peşəkarlığın, cəsarətin və xidməti borca sədaqətin qəhrəmanlıqla necə birləşdiyini göstərir.

Azərbaycan polisinin tarixi də belə qəhrəmanlıq nümunələri ilə zəngindir. Silahlı cinayətkarları zərərsizləşdirərkən yaralanan, xidməti vəzifələrini yerinə yetirərkən həyatlarını itirən polis əməkdaşlarımız az olmayıb. Elə yaxın keçmişimizdə əl bombasını partlatmağa hazırlaşan cinayətkarın qarşısını almaq üçün özünü onun üzərinə atan və partlayış nəticəsində həyatını itirən, silahlı şəxsin açdığı atəşə sinə gərərək yaralanan polis əməkdaşlarımızın fədakarlığı yaddaşlardadır. Hətta xidmətdənkənar vaxtlarda belə insan həyatını xilas etmək üçün özünü təhlükəyə atan, suda boğulan bir neçə nəfəri xilas etdikdən sonra öz həyatını itirən polislərimizin qəhrəmanlığı da unudulmur. Adətən belə fədakarlıqlar milli sərhədləri aşaraq bütün dünya polisinin tarixi kimi həkk olunur. Çünki insan həyatını qorumaq uğrunda göstərilən qəhrəmanlığın milliyyəti və sərhədi olmur.

POLİS

REDAKTOR:
ANAR QAFAROV

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik